

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 199 (23.110)

19 oktyabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsindən və bütövlükdə siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluğunu bildirib.

Maria Elisabetta Alberti Kasellati qonaqpərvərliyə görə minnətdarlığını bildirib, Azərbaycanın həm ənənə, həm də mədəniyyət baxımından çox zəngin ölkə olduğunu vurğulayıb.

Görüşdə sənaye, enerji, neft-kimya, mədəniyyət, infrastruktur, kənd təsərrüfatı, ekologiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olmuşdur





Oktyabrın 18-də – Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün, Azərbaycan Respublikasının orden və medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Dövlət Aktının qəbul olunması Günü münasibətilə təbrik edərək demişdir: 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Dövlət Aktı qəbul olunmuşdur. Lakin o dövrün Azərbaycanında ictimai-siyasi və iqtisadi tənəzzül, vətəndaş müharibəsi, qarşıdurma, hakimiyyət uğrunda mübarizələr və bütün bunlardan istifadə edən işğalçı ölkənin torpaqlarımıza təcavüzü hökm sürürdü. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin itirilmə təhlükəsi yaranmışdı. Belə bir dövrdə Azərbaycanın milli liderə böyük ehtiyacı var idi. O zaman xalqın və ziyalıların təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli liderimiz Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı dövlət müstəqilliyimizi qorudu. Ölkəmizdə sabitlik və vətəndaş həmrəyliyi bərpa olundu, müstəqil Azərbaycan sürətli inkişaf mərhələsinə qədəm qoydu.

Ali Məclisin Sədri demişdir: Bu gün ümummilli liderimizin yolu ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə bütün sahələrin inkişafı diqqətdə saxlanılır, dövlət proqramları qəbul olunur. Dövlət proqramlarının icrasında, xidmətlərində və fəaliyyətlərində fərqlənənlərin əməyi isə qiymətləndirilir, onlar dövlətimizin ali mükafatlarına layiq görülürlər. Bu gün təltif olunanlar da çalışdıqları sahələrdə öz əməkləri ilə fərqlənən insanlardır.

Ali Məclisin Sədri təltif olunanları ölkəmizin ali mükafatlarına layiq görülmələri münasibətilə təbrik etmiş və gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.



Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü, orden və medalların, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Prezident təqaüdçüsü Arif Əzizov çıxış edərək demişdir ki, muxtar respublikada tarixi-mədəni irsimizə qayğı göstərilir. Bu sahədə görülən işlər sırasında tarixi abidələrin bərpası xüsusi yer tutur. Vaxtilə dağılmaq təhlükəsində olan abidələrimizə bu gün ikinci həyat verilir. Bərpaçıların əməyinin yüksək qiymətləndirilməsi isə bizi daha da ruhlandırır. Arif Əzizov əməyinə verilən yüksək qiymətə görə ölkə Prezidentinə minnətdarlıq etmişdir.

Təltif olunanlardan Ruhiyyə Rəsulova minnətdarlıq edərək demişdir: "Tərəqqi" medalı ilə təltif olunmağım çalışdığım Naxçıvan Dövlət Televiziyasının kollektivinin əməyinə verilən yüksək qiymətdir. Səmərəli fəaliyyət göstərmək üçün, ilk növbədə, yaxşı iş şəraiti olmalıdır. Naxçıvan Dövlət Teleradiosunda ən müasir avadanlıqlar qurulmuş, hərtərəfli iş şəraiti yaradılmışdır. Müstəqilliyimizin ilk illərində ölkəmizdəki çətinlikləri yaxşı xatırlayırıq. Lakin ötən dövrdə ulu öndərimizin siyasi xəttinin uğurla davam etdirilməsi xalqımızı əsl müstəqilliyə, ölkəmizi isə davamlı inkişafa və tərəqqiyə qovuşdurub.



Söz veririk ki, bundan sonra da ölkəmizin, eləcə də muxtar respublikamızın müasir inkişafını, zəngin tarixi-mədəni irsini və turizm potensialını layiqincə təbliğ edəcəyik.

Dövlət qulluqçusu Sahib Məmmədov demişdir: Ölkə Prezidentinin Sərəncamı ilə təltif olunmağım və bugünkü təqdimat mərasimində iştirakım həyatımda əlamətdar hadisədir. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki: ***"Mən həyatda yalnız üç şeyə arxalanmışam: Yaradanıma, zəhmətimə və bir də xalqıma".*** Bu gün ulu öndərimizin ideyaları müstəqil Azərbaycana xidmətin əsas istiqamətləridir. Biz də həyat və fəaliyyətimizdə ulu öndərimizin ideyalarına arxalanır, onun müəyyənləşdirdiyi yolun uğurlu davamına dəstək veririk.

Təltif olunanlardan Səbuhi Şahverdiyev, Yaşar Həsənov, Şərafət Babayeva, Samirə Əliyeva, Hicran Hacıyeva və Xanım İsgəndərova da əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq etmiş, bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəklərinə söz vermişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Dövlət Müstəqilliyi Gününə həsr olunmuş tədbirlər keçirilib



*Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin "Ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin banisidir" mövzusunda növbəti məşğələsi keçirilib.*

Lektoriyanı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan dövlət müstəqilliyini ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası, uzaqgörən siyasəti nəticəsində qoruyub saxlaya bilmişdir. Milli dövlətçilik quruculuğu prosesi isə ulu öndərin Ali Məclisin Sədri vəzifəsində işlədiyi dövrdə məhz Onun tərəfindən həyata keçirilməyə başlanıb.

Vurğulanıb ki, ulu öndərin layiqli siyasi varisi Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən çoxsaylı nailiyyətlər ulu öndərimizin müstəqil Azərbaycanın gələcəyi üçün nəzərdə tutduğu bütün işlərin böyük uğurla həyata keçirildiyini sübut edir.

Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Xəzər Hüseynov "Ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin banisidir" mövzusunda çıxış edərək bildirib ki, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli liderin diqqət mərkəzində olan ən əsas məsələlərdən biri də Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi olub. Bildirilib ki, Heydər Əliyev yolu Azərbaycanı firavan gələcəyə aparan yoldur. Həm iqtisadi, həm mədəni, həm də mənəvi inkişaf dahi şəxsiyyətin dövlətçilik ideologiyasının əsas qayəsidir. Bu siyasət hazırda ölkəmizdə, o cümlədən muxtar respublikamızda uğurla həyata keçirilir.

Sonda ulu öndərin həyat və fəaliyyətini əks etdirən slayd nümayiş olunub.

**Badəm MƏMMƏDOVA**

* * *

***Naxçıvan Müəllimlər İnstitutunda 18 oktyabr – Dövlət Müstəqilliyi Gününə həsr edilən elmi-praktik konfrans keçirilib.***

Tədbiri institutun rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev açaraq bildirib ki, xalqımızın ən böyük sərvəti olan dövlət müstəqilliyimizin əldə edilməsi hər bir Azərbaycan vətəndaşı üçün müstəsna əhəmiyyət daşıyır. Respublikamız həqiqi müstəqilliyinə isə ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra qovuşub. Məhz görkəmli dövlət xadiminin həyata keçirdiyi siyasət ölkəmizdə ictimai-siyasi sabitliyi bərqərar edib, onu inkişaf yoluna çıxarıb.

Qeyd olunub ki, bu gün ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirir. Dövlət başçısının qeyd etdiyi kimi, bizim artan nüfuzumuz, gücümüz imkan verir ki, Azərbaycan tam şəkildə müstəqil siyasət aparsın.

Diqqətə çatdırılıb ki, ölkəmiz bu gün sürətlə inkişaf edir. Bu inkişaf Naxçıvan Muxtar Respublikasında da özünü göstərməkdədir. Muxtariyyətinin son 22 ilini öz tarixinə tərəqqi və dinamik inkişaf dövrü kimi yazan qədim Naxçıvan torpağı da dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə dəyərli töhfələr verməkdədir. Muxtar respublikada bütün sahələr üzrə böyük uğurlar ona görə qazanılır ki, burada ulu öndərimiz Heydər Əliyevin yolu sədaqətlə, vətənpərvərliklə davam etdirilir. Bu gün Naxçıvanda böyük quruculuq işləri həyata keçirilir. Naxçıvan Müəllimlər İnstitutu binasının yenidən qurulması və müasir avadanlıqlarla təmin olunması da aparılan təhsil quruculuğunun tərkib hissəsidir.

Konfransda institutun Humanitar və təsviri incəsənət kafedrasının müəllimi Arzu Abdullayev "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir", İbtidai sinif müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Fatimə Həsənova "Ən böyük nailiyyətimiz müstəqilliyimizdir" mövzularında çıxış ediblər.

Sonra Dövlət Müstəqilliyi Günü ilə bağlı videoçarx nümayiş etdirilib, tələbələr vətənpərvərlik mövzusunda Azərbaycan, rus və ingilis dillərində şeirləri bədii qiraət ediblər.

Qeyd edək ki, Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrin Dövlət Müstəqilliyi Gününə həsr etdikləri rəsm əsərləri və əl işlərindən ibarət sərgi-müsabiqə də olub. Müsabiqədə yer tutan 11 tələbəyə diplom təqdim edilib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*18 oktyabr – Dövlət Müstəqilliyi Günü ilə əlaqədar "Naxçıvan" Universitetində Ümumi tarix kafedrasının təşkilatçılığı ilə "Müstəqilliyin başlanğıcı –18 oktyabr" mövzusunda konfrans keçirilib.*

Konfransı giriş sözü ilə universitetin Ümumi tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanov açaraq milli müstəqilliyin dövlətçilik tarixindəki əhəmiyyətindən danışıb.

Bildirilib ki, dövlət müstəqilliyimiz 1991-1993-cü illərdə süquta uğramaq təhlükəsi ilə üz-üzə idi. Məhz ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmiz parçalanmaq, məhv olmaq təhlükəsindən xilas oldu, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatda köklü islahatlara, dövlət quruculuğu prosesinə başlanıldı.

Sonra Ümumi tarix kafedrasının dosenti Elçin Zamanovun "XX əsrin sonlarında SSRİ-nin dağılması fonunda milli azadlıq hərəkatının başlanması və müstəqilliyin əldə olunması", həmin kafedranın müəllimi Nuray Hacıyevanın "Müstəqilliyin saxlanılmasının çətinlikləri – dövlət çevrilişinə cəhdlər" və universitetin Tarix müəllimliyi ixtisası üzrə I kurs magistrantı Könül Vəliyevanın "Müstəqillikdən keçən 27 il gənclərin gözü ilə" mövzularında çıxışları dinlənilib.

Çıxışlarda vurğulanıb ki, müstəqilliyi qoruyub saxlamağın onu qazanmaqdan qat-qat çətin olduğunu tarix dəfələrlə sübut edib. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Dövlət müstəqilliyimiz isə dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyev tərəfindən xilas edildi, Azərbaycan müstəqil dövlət kimi hərtərəfli və davamlı inkişaf yoluna çıxarıldı. Sevindirici haldır ki, müstəqilliyimizin siyasi və iqtisadi sütunları bu gün daha da möhkəmlənir. Xalqla dövlət birliyi nəticəsində inkişaf və tərəqqi istiqamətində mühüm nailiyyətlər əldə edilir. Bunu blokadada olmasına baxmayaraq, misligörünməmiş şəkildə inkişaf edən, sosial-iqtisadi, mədəni tərəqqi yolu ilə irəliləyən Naxçıvan Muxtar Respublikasının timsalında da aydın şəkildə görmək olar.

Sonda tədbir iştirakçıları müstəqilliyimizi əks etdirən slayda baxıblar.

**Nuray ƏSGƏROVA**

* * *

*Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində 18 oktyabr – Dövlət Müstəqilliyi Gününə həsr olunmuş "Müstəqilliyimiz əbədidir" mövzusunda tədbir keçirilib.*

Naxçıvan Qarnizonunun şəxsi heyətinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti, general-mayor Niyaməddin Tağıyev çıxış edərək bildirib ki, milli müstəqilliyimizin xilaskarı olan ümummilli liderimiz Heydər Əliyevin digər sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də həyata keçirdiyi tədbirlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla



davam etdirilir. Muxtar respublikamızda da bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlir. Müdafiə qüdrəti durmadan artan muxtar respublikada yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, böyük əhəmiyyətə malik layihələr icra olunur. Hərbi qulluqçularımız ötən il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradda böyük qürurla iştirak edərək xalqımıza fəxarət, düşmənlərimizə qorxu hissi yaşatdı.

Tədbirdə Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov və Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Zaur Həmidov çıxış ediblər.

Sonra müstəqillik gününə həsr edilmiş videoçarx göstərilib, Heydər Əliyev adına Hərbi Liseyin kursantları Vətənimizə həsr olunmuş şeirləri bədii qiraət ediblər. Tədbirdə, həmçinin "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunmuş rəsm müsabiqəsinin qalibləri mükafatlandırılıblar.

Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının üzvləri əsgərlər qarşısında çıxış ediblər.

**Nəriman NƏCƏFOV**

# İsrail səfiri Dan Stav Naxçıvanın tarixi abidələri, mədəniyyət və istehsal müəssisələri ilə tanış olub



*Oktyabrın 17-18 -də Naxçıvan Muxtar Respublikasında səfərdə olan İsrail Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav muxtar respublikanın tarixi abidələri, mədəniyyət və istehsal müəssisələri ilə yaxından tanış olub.*

Qonaq əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstəsi qoyub.

"Naxçıvan bağları" tərəvəz məhsulları istilik kompleksinin Naxçıvan şəhərində fəaliyyət göstərən istixanasında olan səfirə kompleksdəki mövcud şərait barədə geniş məlumat verilib. Diqqətə çatdırılıb ki, istixanada mövsüm boyu əhalinin tərəvəz məhsullarına olan tələbatını ödəmək üçün şitillər müəyyən zaman intervalında əkilir. Bu il kompleksdə bir hektara yaxın sahədə altı sortda pomidor şitili əkilib. Hazırda isə avqust ayında əkilən bitkilər becərilir, noyabr ayının sonlarına isə məhsul yığımı planlaşdırılır.

Duz Muzeyinə gələn səfirə məlumat verilib ki, muzey bu il aprelin 25-də istifadəyə verilib. Burada 81 eksponat, o cümlədən duzdan hazırlanmış müxtəlif fiqurlar, Naxçıvan Duzdağı haqqında nəşr olunmuş kitablar, Naxçıvan şəhəri, Nuh Peyğəmbər və Naxçıvan, Duzdağ mədəniyyəti və duz yataqları haqqında dərc olunmuş qəzet materialları, "Duzdağ" sənədlər toplusu nümayiş olunur.

Qonaq "Gəmiqaya" heyvandarlıq kompleksi ilə də tanış olub. Bildirilib ki, kompleksdə 600 baş ətlik və südlük heyvan saxlanılır. Burada müasir standartlara cavab verən süd sağımı avadanlıqları quraşdırılıb.

İsrail Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Qarabağlar kəndində fəaliyyət göstərən "Asnı" forel balıqyetişdirmə təsərrüfatında da olub, burada yaradılan şəraitlə maraqlanıb. Sonra qonaq Qarabağlar Türbə Kompleksinə gəlib. Burada məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq türk-İslam mədəniyyətinin nadir nümunələrindən olan kompleks elmi və tarixi əsaslarla bərpa edilib. Türbənin memarlıq xüsusiyyətləri, kitabələrin işlənmə texnikası və digər əlamətləri onun Naxçıvan memarlıq məktəbinin nümunəsi olduğunu təsdiq edir.

Diplomat Şərur rayonunun ərazisində yerləşən "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyaları ilə də tanış olub.

İsrail Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav "Şərq qapısı" qəzetinə müsahibəsində səfər təəssüratları barədə deyib: "Naxçıvan Azərbaycanın əhəmiyyətli və qədim diyarıdır. Bu gün Naxçıvan Muxtar Respublikası ilə İsrail arasında geniş əməkdaşlıq imkanları mövcuddur. Naxçıvanda kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Bu sahədə də qarşılıqlı əməkdaşlığa inkişaf etdirmək mümkündür".

Səfir qeyd edib ki, Azərbaycanda 3 ildən artıqdır, fəaliyyət göstərir və bu, onun Naxçıvana üçüncü səfəridir. "Naxçıvan mənim çox xoşuma gəlir, bu diyarı sevirəm. Səbəbi isə Naxçıvan təbiətinin İsrailə bənzəməsidir. Buranın təmiz havası, işgüzar sakinləri vardır. Nuh Peyğəmbərin məzarı da bu torpaqdadır. Bu diyarda qonaqları duz-çörəklə qarşılayırlar", – deyən səfir yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

**Tural AĞAYEV**

# Müdavimlərə sertifikatlar təqdim edilib

Naxçıvan Şəhər Peşə Liseyində qazanxana maşinisti kurslarını bitirmiş müdavimlərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Orta ixtisas təhsili müəssisələri və peşə məktəbləri ilə iş üzrə şöbəsinin baş məsləhətçisi Elnur Qasımov açıb. Bildirib ki, muxtar respublikada texniki peşə təhsili sistemində şəbəkənin optimallaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, bu müəssisələrin maddi-texniki və tədris bazası yaxşılaşdırılıb, təhsilin məzmunu və təlim-tədris prosesləri müasir tələblər baxımından yenidən qurulub, peşə təhsili müəssisələrində 1, 2 və 3 aylıq kursların təşkilinə başlanılıb.

Vurğulanıb ki, payız-qış mövsümündə fasiləsiz fəaliyyətin təmin olunması üçün avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verilib. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi mövcud olan istilik sistemlərindən, elektrik enerjisindən düzgün və səmərəli istifadə olunması, təhlükəsizlik qaydalarına əməl edilməsi, neftlə işləyəcək müəssisələrdə yanğın təhlükəsizliyi ilə bağlı verilmiş tapşırıqların icrası ilə əlaqədar fəaliyyətini gücləndirib.

Qeyd edilib ki, qazanxana avadanlıqlarının təhsilli kadrlar tərəfindən idarə olunması, mövsüm ərzində qazanxanaların lazımi şəkildə fəaliyyət göstərməsi, burada işləyən mövsümi işçilərin kurslara cəlb olunaraq təlimatlandırılması diqqətdə saxlanılıb. Bu məqsədlə sentyabr ayından etibarən peşə məktəblərində qazanxana maşinisti kursları fəaliyyətə başlayıb. Şərur Texniki Peşə və Sürücülük Məktəbində 20, Ordubad Texniki Peşə və Sürücülük Məktəbində 20 və Naxçıvan Şəhər Peşə Liseyində 48 olmaqla, ümumilikdə, 88 ocaqçı həmin kurslara cəlb olunub.

Tədbirdə Naxçıvan Şəhər Peşə Liseyinin direktoru Vüsal Abdullayev çıxış edərək təşkil olunan kursların əhəmiyyətindən danışıb.

Sonra qazanxana maşinisti kurslarını bitirən müdavimlərə sertifikatlar təqdim edilib.

Qeyd edək ki, analoji tədbirlər Şərur və Ordubad rayonlarında fəaliyyət göstərən Texniki Peşə və Sürücülük məktəblərində də keçirilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Məmməd Araz ideyalarının gerçəkləşdiyi müasir məkan

***Məmməd Araz Vətən sevgisi ilə nəfəs alan, bu yurdun sevincini, qəm-kədərini, poetik fəlsəfəsini hər kəsin anlaya biləcəyi sadə dillə qələmə alan şair-publisistlərimizdəndir.***

Böyük şairin doğulub boya-başa çatdığı qədim Naxçıvan diyarı da bu yaradıcılığın ana xəttini təşkil edir. Hələ ötən əsrin altmışıncı illərində Naxçıvanın sosial-ictimai mənzərəsini publisistik dillə qələmə alan böyük şair bunu "Naxçıvan albomu" adlı əsərində oxucularına çatdırır. Bu albomda Naxçıvanın odövrkü siması, cəmiyyət həyatındakı çatışmazlıqlar öz əksini tapıb. Son illərdə dövri mətbuatda da bir çox müəlliflərin bu haqda yazıları dərc olunub. Albomda maraqlı mövzulardan biri də həmin dövrdə gənclərin məşğuliyyəti, onların asudə vaxtlarının səmərəli təşkili üçün heç bir şəraitin yaradılmamasıdır. Onilliklər keçdikdən sonra, biz Məmməd Arazın ürək yanğısı ilə qələmə aldığı bu problemlərin doğma Naxçıvanımızda öz uğurlu həllini tapdığının şahidi oluruq. Elə buna görə də bu yazıda "Naxçıvan albomu"ndan bəzi hissələri yenidən xatırlamaqla hər iki dövrü müqayisə etmək qərarına gəldik. Beləliklə, ötən əsrin 60-cı illərində insanların, xüsusilə gənclərin mədəni istirahətinin təşkilində böyük rol oynayan klubların az olmasından, klub tikintisinə biganə yanaşan rəhbər şəxslərin səhlənkarlığından şikayətlənən Məmməd Araz klubların gənclərin mənəvi tərbiyəsində, asudə vaxtlarının səmərəli təşkilində əhəmiyyətli rol oynaya biləcəyindən belə yazırdı: "...Klub nədir? Müasir kəndin mədəniyyət, təbliğat ocağı, teatrı, kinosu, filarmoniyasıdır. Klub kənd adamlarının bir-birinə münasibətini büruzə vermək üçün bir ünsiyyət yeridir. Klubda yaxşı əsərlər təbliğ oluna bilər, yaxşı filmlər müzakirə edilər. Gənclərin bir-birini tanıması üçün də klub ən yaxşı görüş yeridir".

Bu gün muxtar respublikamızda geniş yayılmış mədəniyyət müəssisələrindən biri də klublardır. Klubların kənd yaşayış məntəqələrində fəaliyyəti o dövr üçün də, müasir dövrümüzdə də aktual olub. Lakin bu məsələnin müsbət həlli müstəqilliyimizin bərpasından sonra öz təsdiqini tapıb. Naxçıvan Muxtar Respublikasında isə milli mədəniyyətimizin inkişafına göstərilən qayğı müxtəlif mədəniyyət müəssisələrinin fəaliyyətində, onlar üçün yaradılmış müasir şəraitin simasında daha aydın görünür. Belə ki, muxtar diyarımızın bütün kənd yaşayış məntəqələrində istifadəyə verilən kənd mərkəzlərində müxtəlif mədəniyyət müəssisələri üçün də yerlər ayrılır. İndi belə kənd mərkəzlərində fəaliyyət göstərən kitabxana və klublar kənd sakinlərinin, eləcə də uşaq, yeniyetmə və gənclərin daim müraciət etdikləri ünvanlardır. Kəndlərimizdəki gənc nəsil indi müxtəlif ədəbiyyatlarla təmin olunmuş kitabxanalarda asudə vaxtlarını səmərəli keçirir, kitab müzakirələrində, klublarda təşkil edilən mədəniyyət tədbirlərində yaxından iştirak edirlər. Eyni zamanda klublar mütəmadi olaraq müxtəlif teatr səhnələrinin, folklor kollektivlərinin ifasında milli rəqs və oyunlarımızın, musiqi ansambllarının təqdimatında konsert proqramlarının təşkil olunduğu ünvanlardır.

Məmməd Araz yazırdı: "...Naxçıvanda az qala hər binaya bir çayxana yapışdırılıb. Bir qoca kişi elə çayxanaların birində zarafatla dedi: Naxçıvanda çayçılar nazirliyi təşkil etmək lazımdır. Bəzən elə səhər gözünü açıb görürsən ki, evinin böyrünə bir çayxana söykəyiblər. Bir yekə çayxana da mərkəzi kitabxananın binasında yerləşir. Qırmızı tuf daşdan tikilmiş binanın bir tərəfini nəğməkar samovarlar yavaş-yavaş qaraltmaq işi ilə məşğuldurlar... Biz çayçıların çayını bulandırmaq, samovarlarına soyuq su tökmək fikrində deyilik. Naxçıvanda təzə yaranan "çaylamaq" feilinin də dilimizə gəlməsinə etiraz eləmirik. Məsələ bundadır ki, Naxçıvan kimi bir şəhərdə bir dənə də olsun gənclər klubu, kafesi, şahmat yeri yoxdur..."

Çay bizim milli süfrəmizin əsas atributlarındandır. Çayxanalar isə bu milli süfrəni tədqim edən obyektlərdir. Ancaq etiraf edək ki, bir zamanlar Naxçıvanda fəaliyyət göstərən belə çayxanalar işi-gücü olmayan insanların əsl toplantı yerinə çevrilmişdi. Böyük şair demişkən, hər tində bir çayxana vardı. Bu çayxanalar isə asudə vaxtın səmərəli təşkilinə nəinki yaramırdı, hətta səs-küylü, antisanitariya qaydalarına uyğun olmayan həmin obyektlərin yanından keçmək belə, insanı üzürdü. Gənclərin bu cür çayxanalara alışması isə problemi daha da dərinləşdirirdi. Ancaq şükürlər olsun, indi Naxçıvan şəhərində bu ehtiyacı təmin edən müasir çay evləri və yaxud müxtəlif iaşə müəssisələri fəaliyyət göstərir. Tütün və spirtli içkilərdən uzaq bu cür məkanlar gənclərimizin əsl istirahət yerləridir. Ancaq gənclərlə bağlı iş bununla bitmir.

Bu gün Naxçıvanda həyata keçirilən dövlət gənclər siyasəti əsas sahələrdən biridir. Müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, bütün sahələrdə gənclərə etimad göstərilməsi bu siyasətin əsasını təşkil edir. Çünki ölkəmizin gələcək inkişafını bugünkü gənclər təmin edəcəklər. Gənclərimiz isə daha yaxşı təhsil almaqla, vətənpərvər yetişməklə, lazımi bilik və vərdişlərə yiyələnməklə buna nail ola bilərlər. Dövlətimiz gəncləri mühüm potensial kimi görür. Elə bu potensialın yüksək səviyyədə qiymətləndirilməsinin nəticəsidir ki, bu gün muxtar respublikamızda Gənclər Fondu fəaliyyət göstərir. Məqsəd gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək, gənclərin müxtəlif sahələrlə bağlı innovativ ideyalarını dəstəkləmək, eyni zamanda onların təşəbbüskarlıqlarının stimullaşdırılmasıdır.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı" təsis olunub, kitaba adları düşmüş istedadlı gənclərə təqaüdün verilməsi ilə bağlı qaydalar təsdiq edilib. Bütün bunlar isə gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır. Gənclərlə bağlı həyata keçirilən tədbirlər bununla yekunlaşmır. Naxçıvan şəhərində fəaliyyət göstərən Gənclər Mərkəzi mütəmadi olaraq muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında müxtəlif idman və bilik yarışları, mədəni tədbirlərin təşkilində mühüm rol oynayır. Burada müxtəlif dillər üzrə hazırlıq kursları keçirilir.

Böyük vətənpərvər şairin vaxtilə təəssüf hissi ilə söylədiyi Naxçıvanda "şahmat yeri yoxdur" fikrinə gəlincə bu gün Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası bu idman növünün inkişafı istiqamətində əhəmiyyətli işlər görür. Bütün rayon mərkəzlərində şahmat məktəbləri, Naxçıvan şəhərində isə Şahmat Mərkəzi fəaliyyət göstərir. Artıq bu mərkəz beynəlxalq şahmat yarışlarının keçirildiyi məkana çevrilib. Eyni zamanda orta ümumtəhsil məktəblərində şahmatın öyrədilməsi tədris proqramına salınıb. Görülən işlərin nəticəsidir ki, son illərdə muxtar respublikamızda güclü şahmatçılar nəsli yetişir. Bu gün Naxçıvan beynəlxalq idman yarışlarının, mədəni-kütləvi tədbirlərin keçirildiyi məkana çevrilib. Görülən işlərin nəticəsidir ki, son illərdə muxtar respublikamızda gənclərimiz idmanın müxtəlif sahələrində keçirilən beynəlxalq səviyyəli yarışlarda yüksək nəticələr göstərirlər.

Bunu da xatırlatmaq lazımdır ki, indi muxtar diyarımızın hər bir bölgəsində, eyni zamanda paytaxt Naxçıvan şəhərində yeni kinoteatrlar, müasir kitabxana və kitab evləri, gənclər üçün əyləncə mərkəzləri fəaliyyət göstərir. Gənclər isə yaradılmış bu şəraitdən layiqincə yararlanaraq Vətənimizə, dövlətimizə layiqli vətəndaş olmağa çalışırlar. Gənclər sahəsində görülən işlərin nəticəsidir ki, bu il Naxçıvan şəhəri ölkəmizdə Gənclər Paytaxtı seçilib. Yəqin ki, böyük şairimiz bu günləri görsə idi sevinər, Naxçıvanın müasir dövr gəncliyini öz qələmi ilə tərənnüm edərdi. Biz isə o dövrün gəncliyi ilə müasir dövrümüzü müqayisə etmək imkanı verdiyi üçün Məmməd Arazı dərin ehtiram hissi ilə yad edir, dövlətimizə isə minnətdarlığımızı bildiririk.

✍ **Gülcamal TAHİROVA**

***Məğlubedilməzliyi, qəhrəmanlığı, vətənsevərliyi ilə əsrlərboyu tarixdə iz qoyan Oğuz yurdu Naxçıvan ötən ay daha bir beynəlxalq tədbirə ev sahibliyi etdi. Bu dəfə Avropanın diplomatları, səfirləri və digər qonaqlar Avropanı Naxçıvanda kəşf etdilər. Üç gün ərzində burada sübut olundu ki, "Avropa günləri"nə ev sahibliyi edən Naxçıvan Şərqin günəşi olduğu kimi, Qərbin də bir çox şəhərlərinə nümunə olacaq şəkildə inkişaf edir, gözəlləşir. Nuh yurdu öz milli dəyərlərinə, tarixi köklərinə söykənərək minilliklər boyu qazandıqlarını bir daha nümayiş etdirdi.***

# Naxçıvan: qürur duyduğumuz doğma diyar



Həmin tədbirlərə qatılan avropalı səfirlər muxtar respublikanın müasir görkəmi və inkişafını yüksək dəyərləndirdilər, bunu keçirilən mətbuat konfransında da etiraf etdilər. "Naxçıvan təkcə söz demir, həm də iş görür", – deyən Belçika səfiri Bert Skufsun fikirlərini Yunanıstanın ölkəmizdəki səfiri belə tamamladı: sevgi, sülh və günəş. Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas isə bu ifadələrə "təmizlik" sözünü də əlavə etdi.

Bu ifadələr 3 günlük tanışlıqdan sonra avropalı qonaqları heyran qoyan qədim yurda haqlı olaraq verilən ən gözəl qiymət idi. Xarici qonaqların qədim yurd haqqında təəssüratları hamımızı qürurlandırdı. Bəs bu inkişafın və etibarın arxasında nə dayanır? Keçmişə nəzər salıb bu günümüzə necə gəlib çıxdığımızı xatırlayaq. Bu ifadələri eşitmək üçün hansı yollardan keçdiyimizi yada salaq.

Ötən əsrin 90-cı illərinin əvvəllərində bir tərəfdən blokada, bir tərəfdən də mənfur qonşumuz ermənilərin ardı-arası kəsilməyən hücumları Naxçıvanda çox təhlükəli, daha dəqiq desək, qorxunc bir vəziyyət yaratmışdı. Bu, həmin vaxtlar idi ki, sərhədlərimizdə döyüş gedirdi, Azərbaycanın ozamankı rəhbərliyi Naxçıvana "kor bağırsaq" deyirdi. Onu "kəsib" ana Vətənindən ayırmaq istəyirdi. Bu, o vaxt idi ki, insanların ümidi hər yerdən üzülmüşdü. Hər an işğal təhlükəsi yaşayan Naxçıvanda əhali günün çoxunu çörək növbələrində keçirirdi. Belə bir dəhşətli vəziyyət ümummilli liderimiz Heydər Əliyev yenidən siyasi fəaliyyətə qayıdanadək davam etdi. Ulu Tanrı bu diyara dözüm, qətiyyət, səbir, Naxçıvanın və naxçıvanlıların ən ağır günündə xalqın dahi oğlunu xilaskar kimi göndərdi. Onun gəlişi mənəvi güc verdi naxçıvanlılara. Bugünkü növrağın təməli məhz o günlərdə atıldı. Məmləkətimizin bu kiçik şəhərində yeni, azad, müstəqil Azərbaycan dövlətçiliyinin bünövrəsi qoyuldu. Onun baş memarı Azərbaycanı illərdir, qurub-yaradan və yaşadan dahi rəhbər Heydər Əliyev idi.

Zaman keçdi... İnsanlara doğru yol göstərildi. Əhalinin məşğulluğu təmin edildi. Hər kəs gücü çatdığı, bacardığı işin, peşənin dalınca getdi.

Digər sahələrdə olduğu kimi, cinayətkarlığa qarşı mübarizədə tətbiq olunan Naxçıvan modeli, yəni cinayət baş verəndən sonra yox, törədilməzdən əvvəl həyata keçirilən tədbirlər öz bəhrəsini verdi. Bir vaxtlar səksəkəli günlərini yaşayan Naxçıvan indi təhlükəsiz, nizam-intizamlı, cinayətsiz regiona çevrilib. Bu gün Naxçıvan torpağında atalar demişkən: "Başına qızıl al, gəz" sabitliyi hökm sürür. Özgənin malına-mülkünə, varına-dövlətinə, insan şəxsiyyətinə hörmətin bariz nümunəsi bu torpaqdadır. Muxtar respublikanın sərhədləri düşməndən necə qorunursa, hüquq-mühafizə orqanları da müstəqil dövlətimizin qanunlarının keşiyində o cür ayıq-sayıq dayanır. Dahi Nizaminin " Xəmsə"sində arzuladığı qıfılsız evləri, gözətçisiz sahələri olan sakit guşəli məmləkət bu gün Naxçıvan diyarının timsalında görünür. Bu, çox sadə görünsə də, əslində, onun arxasında böyük bir səbəb – sabitlik dayanır.

Son illərdə dinindən, dilindən, cəmiyyətdə tutduğu mövqedən və fəaliyyətindən asılı olmayaraq, Naxçıvana gələn yerli, həm də xarici qonaqların birmənalı olaraq işlətdiyi ifadələrdən biri də budur: "Naxçıvan çox təmiz şəhərdir". Vaxtilə həsəd apardığımız dünyanın ən təmiz şəhərlərindən olan Almaniyadan bu gün heç də geri qalmayan qədim Naxçıvan öz təmiz, səliqəli küçələri, parkları, meydanları ilə buraya gələn hər kəsi heyran qoyur. Ulu diyarımız bu gün o qədər gözəl, təmizdir ki, insan gördüklərini tərif etməyə söz tapa bilmir. Öz yurdunun saatbasaat, günbəgün bütün yönlərdə yeniləşdiyini, bütövlükdə, boy atdığını görmək dünyanın ən böyük xoşbəxtliyidir. İftixar hissi ilə demək olar ki, bu gün Naxçıvan Muxtar Respublikası yüksəliş dövrünü yaşayır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikanın iqtisadiyyatı ilbəil möhkəmlənir, əhalinin yaşayış səviyyəsi yüksəlir, şəhər və kəndlərdə quruculuq işləri geniş vüsət alır.

Təbiidir ki, bütün bunlar asanlıqla əldə edilməyib. Bu məsələdə Heydər Əliyev ideyalarının muxtar respublikamızda da uğurla davam etdirilməsi xüsusi rol oynayır. Görkəmli dövlət xadiminin Naxçıvan haqqında arzu və planları bu gün öz yerini tapmaqdadır. Naxçıvan ölkəmizin regionları içərisində ön sıralarda, dahi rəhbərin müəyyənləşdirdiyi yolla inamla gedir. Bütün bunları muxtar respublikada yaşayan və bu qədim diyara qonaq gələn hər kəs görür, duyur və etiraf edir.

Bəli, bu gün iftixar hissi ilə demək olar ki, doğma diyarımız yüksəliş dövrünü yaşayır, bütün yaşayış məntəqələrimiz gülüstana çevrilir. Bu isə qədim yurdumuza turist axınını gücləndirir. Buraya səyahət edənlər Naxçıvanda gördükləri sürətli inkişaf və tərəqqidən təəccüblərini gizlədə bilmirlər.

Müstəqil Azərbaycanın dövlət siyasətinin uğurla həyata keçirilməsi, regionda böyük quruculuq proqramlarının ardıcıl olaraq gerçəkləşdirilməsi, müasir inkişafın təmin edilməsi Ali Məclis Sədrinin çoxillik dövlətçilik təcrübəsinin, böyük əməllə əsl sədaqətin vəhdəti olan yorulmaz təşkilatçılıq fəaliyyətinin real nəticələridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də muxtar respublikada həyata keçirilən böyük quruculuq proseslərini nümunə kimi dəyərləndirmişdir: ***"Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir… Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Əgər bu, varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir".***

Reallıq budur ki, bu gün muxtar respublikamızda ictimai-siyasi sabitlik hökm sürür, sosial-iqtisadi inkişaf günbəgün sürətlənir. Hərtərəfli biliyə malik gənc nəslin yetişdirilməsinə, onların asudə vaxtlarının səmərəli təşkilinə hər cür şərait yaradılıb. Müasir məktəblər, gənclik mərkəzləri, idman zalları və kompleksləri istifadəyə verilib. Vaxtilə yetkinlik yaşına çatmayanlar arasında cinayət hallarının çoxluq təşkil etdiyi muxtar respublikamızda son illər bu qəbildən heç bir cinayət hadisəsi qeydə alınmayıb. Bir zamanlar küçələrdə veyil-veyil gəzən gənclər, yetənə yetən, yetməyənə bir daş atan yetkinlik yaşına çatmayan uşaqlara rast gəlmək artıq mümkün deyil. Bugünkü yeniyetmələr böyük uğurlar qazanan, ali məktəblərə qəbul imtahanlarında 500-700 bal toplayan abituriyentlərdir. Artıq naxçıvanlı gənclərin sorağı ölkəmizin və dünyanın nüfuzlu təhsil ocaqlarından gəlir. Bu gün onlar beynəlxalq yarışlarda bayrağımızı dalğalandıran, himnimizi səsləndirən qürurverici gənclərə, Naxçıvan şəhəri isə 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtına çevrilib.

Amma keçmişini unudanın gələcəyi olmaz, – deyiblər. Biz də zaman-zaman keçmişə müraciət edib, bu gün əmin-amanlıq, sabitlik, sülh şəraitində yaşayan gənc nəslə, o dövrün çətinliklərindən inkişafa gedən yolun heç də asan olmadığını çatdırmağa çalışırıq. Ona görə ki, dövlətin, millətin gələcəyi olan gənclik keçmişini dərindən öyrənməklə bu gününə qiymət verə, irəliyə inamla addım ata bilsin. Reallıqları yaşamağı, yaşatmağı bacaran əsl vətəndaş olsun.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Naxçıvandan Buenos-Ayresə uzanan yol

### *Bu yolda qazanılanlar Naxçıvan idmanının uğurlarıdır*

***Ağır atletika risk tələb edən mürəkkəb bir idman növüdür. Bu növdə qüvvət və sərtliyin birləşməsi idmançıya böyük bir çəkini qaldırmaq imkanı verdiyi kimi, psixoloji gərginlik də yaradır. Ağır atletika ən qədim idman növü kimi olimpiya oyunlarının proqramına daxil edilib. Dünyanın ən mötəbər idman bayramında bu növ öz "ağırlığı" ilə böyük nüfuz qazanıb. Belə bir "ağırlığın" altına girmək böyük məsuliyyət, cəsarət tələb edir. Bu öhdəliyi öz üzərinə götürən isə hazırda dünyanın ən güclü idmançılarından biri hesab edilən, yeniyetmələr arasında ikiqat Avropa çempionu Tərmenxan Babayevdir. 100 ilə yaxın ağır atletika tariximizdə təkanla qaldırma hərəkətində onun ram etdiyi çəkiləri bu yaşda öz çəkisində heç kim başı üzərinə qaldıra bilməyib.***

#### *İlk yarışdan ümidləri doğruldan idmançı*

Şərur rayonunun Çomaxtur kəndində 2002-ci ildə dünyaya göz açan Tərmenxan Babayev idmana erkən yaşlarından maraq göstərib. 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölməsinə yazılıb. Burada onun ilk məşqçisi Şəfi Hüseynov olub. İkiillik məşqlərdən sonra o, ölkə birinciliyində uğurlu nəticə qazanıb. Təməli bu yarışdan qoyulan uğurlar onun milli komandaya dəvət






olunması ilə nəticələnib. Bununla da onun üçün idman karyerasında yeni dönəm başlayır. Tərmenxan qarşısına bir məqsəd qoyur: idman rejiminə riayət etmək və böyük rəqabətdən qalib ayrılmaq. Qısa vaxt kəsiyində bunun öhdəsindən gələn Tərmenxanın özünəinamı artır, 2016-cı ilin əvvəlində çıxış etdiyi ölkə birinciliyində çempion olur, Azərbaycan kubokunu başı üzərinə qaldırır. Həmin il yığmanın heyətində Malayziyada keçirilən dünya birinciliyində mükafat qazanmasa da, ilk beynəlxalq yarışda hamının diqqətini cəlb edir.

#### *Rekordlarla dolu il*

Tərmenxan Babayevin idman karyerasına 2017-ci il qızıl hərflərlə yazılır. Həmin ilin aprel ayında Tailandın paytaxtı Banqkokda keçirilən dünya birinciliyində 77 kiloqram çəki dərəcəsində çıxış edən Tərmenxan birdən qaldırmada 125, təkanla qaldırmada isə 155 kiloqramlıq nəticə ilə yekunda B qrupunun qalibi olur. Əldə edilən bu uğur ona Buenos-Ayresdə keçiriləcək yeniyetmələrin olimpiadasına lisenziya qazandırır. Sentyabr ayında Kosovonun paytaxtı Priştinada keçirilən Avropa çempionatında yaşı 15-ə qədər olan atletlərin 85 kiloqram çəki dərəcəsində yarışan idmançımız rekordlarla Avropanın diqqətini özünə cəlb edir. Belə ki, birdən qaldırma hərəkətində hər üç yanaşmasını uğurla yerinə yetirərək, sonda 130 kiloqramı ram edir və ən güclü rəqibi bolqar Stefço Xristovu 15 kiloqram qabaqlayaraq bu hərəkətdə birinci olur. Təkanla qaldırmada isə daha böyük uğura imza atır. İlk yanaşmasında 150 kiloqramı ram edərək macar atlet Adrian Terebesinin Tailandın Banqkok şəhərində keçirilən yeniyetmələrin dünya birinciliyində müəy-



yən etdiyi Avropa rekordunu (146 kiloqram) düz 4 kiloqram yeniləyir. O həmçinin yunan atlet Evangelios Qaliatsatosun 2015-ci ildə İsveçin Landskrona şəhərində keçirilən yeniyetmələrin Avropa birinciliyində bu çəkidə toplamda müəyyən etdiyi Avropa rekordunu (276 kiloqram) da təzələyir. İkinci yanaşması da uğurlu olan həmyerlimiz 155 kiloqramı qaldıraraq həm bu hərəkətdə, həm də toplamda daha 2 rekorda imza atır. Sonuncu yanaşmasında 161 kiloqramın da öhdəsindən gələn Tərmenxan rekordları siyahısına ikisini də əlavə edir. Toplam 291 kiloqram (130+161 kiloqram) nəticə ilə Avropa çempionu olur. Gənc atletimiz bu birincilikdə birdən-birə 6 Avropa rekordunu yeniləyərək adını qızıl hərflərlə idman tarixinə yazdırır.

Tərmenxan Babayev qazandığı uğurlarla 2017-ci ildə Azərbaycanda "İlin ən yaxşı ağır atleti" mükafatına layiq görülür, üzərində böyük əməyi olan məşqçisi Şəfi Hüseynov isə ilin məşqçisi nominasiyasının qalibi olur. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin seçiminə əsasən ağır atletimiz muxtar respublikada "İlin idmançısı" mükafatını da qazanır.

#### *İlk Olimpiya medalı*

Cari ildə qazandığı uğurlarla idmançımız gələcəkdə daha böyük nailiyyətlərə sahib olacağını bir daha nümayiş etdirib. Öncə, ilin əvvəlində böyüklər arasında keçirilən respublika çempionatında ilk dəfə çıxış edən Tərmenxan rəqibindən yalnız 4 kiloqram geri qalmaqla ikinci olub. Mayda yeniyetmələr arasında keçirilən analoji yarışda rəqibini 100 kiloqram qabaqlamaqla növbəti dəfə ölkə çempionu adını qazanıb. İyulda isə İtaliyanın Milan şəhərində keçirilən Avropa çempionatında 17 yaşadək oğlan atletlərin 94 kiloqram çəki dərəcəsində çıxış edib. Bu yarışmada birdən qaldırmada 145 kiloqram nəticə ilə ikinci, təkanla qaldırmada isə 180 kiloqram göstərici ilə birinciliyə nail olub. Toplamda 325 kiloqramlıq nəticə göstərən Tərmenxan bununla da ikinci dəfə Avropanın ən güclü ağır atleti olduğunu göstərə bilib.

Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin 3-cü Olimpiya oyunlarında bütün diqqət ağır atletimizə yönəlmişdi. 85 kiloqram çəki dərəcəsində körpücük üzərinə çıxan Tərmenxan Babayev ümidləri tamamilə doğrultdu. O, birdən qaldırma hərəkətində 142, təkanla qaldırma hərəkətində isə 174 kiloqramın öhdəsindən gələrək (ümumilikdə, 316 kiloqram) Yeniyetmələrin Olimpiya oyunlarında "Gümüş" medal qazandı.

#### *Fikirlər...*

Təbii ki, Tərmenxan Babayevin idman karyerasına yazılan bu yüksək qələbələrdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Ağır Atletika Federasiyasının və onun məşqçisinin əməyi danılmazdır. Yeniyetmələrin Olimpiya oyunlarında "Gümüş" medal qazanan idmançımızın özü də bu fikirdədir: "Karyeram ərzində mənə hədsiz dərəcədə dəstək oldular. Ona görə də qazandığım bu uğuru onların zəhmətinin qarşılığı hesab edirəm. Məşqçim, eləcə də muxtar respublikanın Gənclər və İdman Nazirliyi və federasiya hər zaman mənə dəstək oldu, hər yarışda iştirakımı təmin etdilər. Bu nəticələrdə əziyyəti olan məşqçi-müəllimlərimdən tutmuş rəhbərliyə qədər hər kəsə minnətdarlığımı bildirirəm. Hər yarışa olduğu kimi, Olimpiya oyunlarına da çox yaxşı hazırlaşmışdım və məsuliyyəti dərk edirdim. Elə körpücük üzərində də qələbə üçün çıxmışdım. Olimpiada ciddi turnirdir və burada istənilən nailiyyət böyük əziyyət hesabına başa gəlir. Vətənə "Qızıl" medalla qayıtmaq istəyirdim, amma "Gümüş"lə kifayətlənməli oldum. Rəqiblərim güclü idilər, lakin sona qədər mübarizə aparmalı idim. Çalışdım ki, bütün gücümü ortaya qoyum. Olimpiya oyunlarında fəxri kürsünün ikinci pilləsinə qalxdım. Ölkəmi layiqincə təmsil etdiyimə, doğma Naxçıvana medalla döndüyümə görə çox şadam".

İdmançımızın şəxsi məşqçisi Şəfi Hüseynov isə yetirməsinin ona verdiyi sözə əməl etdiyinə görə özünü xoşbəxt hesab edir: "Tərmenxanın bu istedada malik olduğunu məşqə gəldiyi ilk gündən görmüşdüm. Buna görə də onunla xüsusi olaraq çalışırdım. Onu dünyanın məşhur ağır atleti Halil Mutluya bənzədirdim. Hələ 2015-ci ildə ilk dəfə ölkə çempionu olarkən, onunla söhbətimdə mənə bunu böyük uğurların başlanğıcı saydığını dedi. Tərmenxan mənim əziyyətlərimin ilk bəhrəsidir. Onun Olimpiadada "Gümüş" medal qazanması mənim üçün ikiqat dəyərlidir. Tərmenxanın uğurları hələ qabaqdadır. Çünki onda böyük idmançı xarakteri var, verilən bütün tapşırıqları tezliklə mənimsəyir və yerinə yetirir. Belə qələbələr həm də Naxçıvan idmanının uğuru, muxtar respublikamızda idmana göstərilən dövlət qayğısının ifadəsidir".

Azərbaycan Ağır Atletika Federasiyasının baş katibi Rizvan Rəsulov Tərmenxan Babayevin ümidləri doğruldacağına hələ Cənubi Amerikaya getməmişdən öncə inanırmış: "Tərmenxan uzun illərdir ki, milli komandanın heyətinə dəvət olunub və keçirilən yarışlarda mütəmadi olaraq çıxış edir. İki il bundan əvvəl Tailandda keçirilən dünya çempionatındakı çıxışı bizdə ona qarşı böyük ümidlər yaratdı. Bu müddət ərzində Tərmenxan bütün yarışlarda iştirak etdi və Vətənə medallarla qayıtdı. Xüsusilə İtaliyanın Milan şəhərindəki çıxışını qeyd etməliyəm. Həmin yarışda "Avropa çempionu" adını qazanması və rekordları ilə ağır atletika tariximizdə ilklərdən oldu. Olimpiya oyunlarına vəsiqə qazanmasından sonra ona ümidlərimiz daha da artıb. İnanırdıq ki, Tərmenxan bu mötəbər yarışda da uğurla çıxış edəcək. Çünki onda idmançı intizamı, xarakteri var. Deyə bilərik ki, artıq yeni Nizami Paşayev yetişir. Bunu da qeyd edim ki, Tərmenxanın uğurlu çıxışında Nizami Paşayevin də böyük əziyyəti var. Həmçinin onun belə nailiyyətlər əldə etməsi Naxçıvan idmanı üçün böyük uğur və Naxçıvan idmanının hansı səviyyədə olduğunun göstəricisidir".

İndi Tərmenxan Babayevin bir məqsədi var: 2020-ci ildə Tokioda keçiriləcək böyüklərin Yay Olimpiya oyunlarında iştirak etmək. İnanırıq ki, həmin yarışda 16 yaşlı ağır atletimiz ölkəmizin bu idman növündə də parlaq gələcəyi olduğunu göstərəcək. Bu yolda ona uğurlar arzu edirik.

**Ceyhun MƏMMƏDOV**

## Sakinlər tərəfindən muzeyə 26 eksponat təqdim olunub



*Sədərək kənd sakinləri Əli Ağayev, Süleyman Tağıyev, Fərrux Heydərov, Qaraağac kənd sakinləri İslam Şahverdiyev və Novruz Cabbarov tərəfindən qədim tariximizi və mədəniyyətimizi əks etdirən xalça, o cümlədən başqa toxuculuq məmulatları, mis və saxsı qablar və digər nümunələrdən ibarət 26 eksponat Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilib.*

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, muxtar respublikada tariximizin, mədəniyyətimizin, adət-ənənələrimizin araşdırılması, qorunması və gələcək nəsillərə çatdırılması diqqət mərkəzində olan məsələlərdəndir.

Qeyd edilib ki, Mədəniyyət Nazirliyinin tabeliyində 30 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Bu muzeylərdə də xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 mindən çox maddi-mədəniyyət nümunəsi mühafizə olunaraq qorunub saxlanılır. Son illər ərzində yeni muzeylərin yaradılması da artıq ənənə halını alıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən bu il Naxçıvan Duz Muzeyi istifadəyə verilib, Qarabağlar Türbə Kompleksi və Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamı bərpadan sonra öz qapılarını ziyarətçilərinin üzünə açıb. Bu gün muzeyləri ziyarət edənlərin də sayı əhəmiyyətli dərəcədə artıb. İlin 9 ayı ərzində muxtar respublikanın muzeylərini 435 min 560 nəfər ziyarət edib ki, onların 139 mindən çoxu əcnəbi vətəndaşdır.

Vurğulanıb ki, nazirlik tərəfindən muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzey əməkdaşları və muxtar respublika sakinləri yaxından iştirak edirlər. Bəhs olunan dövrdə muxtar respublika muzeylərinə 1065 eksponat daxil olub. Bu müddət ərzində AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna qədim tarixə malik əlyazma və kitabların təqdimatı da daxil olmaqla, ümumilikdə, 6 eksponat təqdimatı keçirilib. Nazir göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Sonra eksponatları muzeyə hədiyyə edənlərdən Əli Ağayev, Fərrux Heydərov, İslam Şahverdiyev və Novruz Cabbarov maddi-mədəni irsimizin qorunması baxımından belə tədbirlərin əhəmiyyətini qeyd ediblər. Vurğulayıblar ki, bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Miras qoyanın nəvə və nəticələri nə vaxt vərəsə olurlar?*

***Cavab:*** Azərbaycan Respublikasının mülki qanunvericiliyinin tələbinə görə miras qoyanın nəvə və nəticələri öz valideynlərinin sağlığında vərəsə olmurlar. Ölənin nəvə-nəticələri o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsə olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı ölmüş valideyninə çatası paydan bərabər miras alırlar. Vərəsəlik hüququnun bu qaydada ötürülməsi təmsilçilik hüququ üzrə vərəsəlik adlanır. Bu ancaq miras qoyanın nəvə-nəticələrinin vərəsə olacaq valideynlərinin miras açılanadək ölməsi faktı ilə yaranan hüquqdur. Elə hesab edək ki, atanın üç oğlu vardır. Oğlanlardan biri ölür və onun iki qızı (atanın nəvələri) qalır. Bundan xeyli müddət keçmiş (məsələn, bir il) atanın özü ölür və bunun nəticəsində miras açılır. Belə halda miras qoyan atanın sağ olan iki oğlu vərəsəliyə çağırılır. Onlarla birlikdə, eyni vaxtda həm də ölən oğulun iki qızı, yəni miras qoyan atanın iki qız nəvəsi də vərəsəliyə çağırılır. Həmin qızlar miras qoyan atanın vərəsəsi ola bilən öz ölmüş valideyninin (əlbəttə, o, ölməsəydi, atanın ölümündən sonra vərəsə olacaqdı) vərəsəlik münasibətində yerini tutur, onu əvəz edir və buna görə də miras əmlakdan müəyyən pay (qanun üzrə vərəsəlik əsasında ölmüş valideynə düşəsi hissəyə bərabər olan pay) alırlar. Bununla onlar qanun üzrə vərəsə olurlar.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, Əliabad qəsəbəsi, döngə 16, ev 10-da yaşayan Təhməzova Nailə Beytulla qızının adına olan 15415 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*
Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Nömrəyə məsul:* Mətanət Məmmədova
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1490. Sifariş № 770